*Heydər Əliyev—90*



# Yüksək vətənpərvərlik nümunəsi, milli ruhun daşıyıcısı

Bu məqaləni hazırlayarkən mövzunu təsadüfən, və ya diqqəti zahirən cəlb etmək naminə seçmədik. Mənim 50 ilə yaxın əmək fəaliyyətim var. Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin bütün dövrləri əmək fəaliyyətinin ən qaynar çağlarına təsadüf edib. Ulu öndər sanki anadan yalnız gələcək siyasi xadim kimi doğulmuşdur. Onu XX əsrin ən böyük siyasi xadimlərindən biri kimi adlandıranlar heç də yanılmırlar. Dahi şəxsiyyətin möhkəm iradəyə, uzaqgörən siyasətə, Azərbaycançılıq məfkurəsinin daşıyıcısına malik olduğunu, bütün fəaliyyəti dövrundə onun cəsarətini, qətiyyətini yüksək qiymətləndirməmək mümkün deyildir. Bu iradə, cəsarət, qətiyyət onun Qəbələyə səfərləri zamanı da özünü göstərmişdir. Mən bu yazıda ulu öndərin Qəbələ səfərləri zamanı bu rayonun iqtisadi inkişafı üçün gördüyü böyük işlərdən, qaldırdığı təşəbbüslərdən bəzi məqamları açıqlamaq istərdim.

Ulu öndərin Qəbələyə birinci səfəri 1978-ci ilin may ayında olmuşdur. O vaxtlar totalitar sovet rejimi ən inkişaf etmiş və elmi-texniki tərəqqi dünyanın siyasi-iqtisadi arenasında yüksək pillələrindən birində dayanan bir rejim idi. Hərbi qüdrətinə görə də özünə məxsus yer tuturdu. Başqa sözlə desək, 1970-ci illərdə təkcə SSRİ-də deyil, bütün dünyada, çox məhşur olan radiolokasiya stansiyalarından biri Qəbələdə tikilirdi. Bu stansiya kosmosa, o cümlədən 6 min kilometr radiusda məsafəyə nəzarət edərək qurudan və dənizdən atılan ballistik raketləri bir neçə saniyə ərzində qeydə alır, trayektoriyasını izləyir, eyni zamanda süni peyklərin orbitə yönəldilməsinin, raketin lazım olan nöqtədə vurulmasının hesablanmasını həyata keçirirdi. Ordan-burdan sızan bəzi məlumatlara görə stansiya Qəbələnin həyatını çox ciddi təhlükə altında qoya bilərdi.

1977-ci ildə stansiyaya yüksək gərginlikli elektrik xətti çəkilirdi. Lakin bu xətt çəkilərkən xalqımızın qədim tarixini əks etdirən abidələri nəzərə alınmamışdır. Xəttin bir neçə qurğusu Azərbaycan torpaqlarında yerləşən və eramızdan əvvəl və bizim eranın əvvəllərində qədim Alban dövlətinin 900 il paytaxt şəhəri olan Qəbələnin qala qapıları yerləşdiyi əraziyə düşürdü. Yer kürəsi dövlətlərinin ikili cəbhəyə—sosializm və kapitalizm cəbhələrinə bölünüb kəskin siyasi-ideoloji-hərbi mübarizə apardığı bir dövrdə tikintiyə mane olmaq, irad bildirmək nə qədər ağlasığmaz bir məsələ olduğunu düşünsək kifayətdir. Elə RLS haqqındakı qeydlərimiz də oxucuya vəziyyətin nə yerdə olduğunu xatırlatmaqdır. Bu o demək idi ki, tariximizin əvəzsiz, misilsiz bir qədim abidəsi ordunun nəzarətinə verilir və bununla da məhv olmaq təhlükəsinə çevrilir, arxeoloji qazıntılar tamamilə dayandırılırdı. O vaxt vəziyyətdən çıxış yolunu arxeoloqlar, Qəbələ ziyalıları taparaq Heydər Əliyevə müraciət etmişlər.

Təkrar qeyd edək ki, yüksək hərbi əhəmiyyətə malik obyektin tikintisinə düzəliş vermək böyük cəsarət və qətiyyət tələb edirdi. Lakin belə bir iradə, qətiyyət və cəsarət Heydər Əliyevdə vardı. O, SSRİ Hərbi Hava Qüvvələrinin komandanı ilə ciddi danışığa girmişdir. Nəhayət, onun təklifi ilə Qəbələyə nüfuzlu komissiya gəlmiş, vəziyyəti yerində araşdırmışdır. Heydər Əliyevin Qəbələyə ilk səfəri də bu məsələ ilə bağlı olmuşdur. O, Qəbələdə tikintinin gedişi ilə tanış olmuş, əhali ilə görüşüb söhbət etmiş, onların arzu və təkliflərini dinləmişdir. Qəbələdə bir radio zavodunun tikiləcəyinə də söz vermişdir. Tezliklə Zarağan kəndində zavodun tikintisinə də başlanmışdır.

Lakin Heydər Əliyev Moskvaya, Kremlə ali dövlət orqanlarında işə dəvət aldıqdan, yəni Azərbaycandan getdikdən sonra zavodun tikintisi dayanmışdır.

Ulu öndər Qəbələdən Bakıya qayıtdıqdan sonra 21 iyul 1978-ci ildə tarix və mədəniyyət abidələrinin mühafizəsi və onların istifadəsi haqqında qanun qəbul olundu. Sənəddə qanunvericiliyi pozmağa görə məsuliyyət nəzərdə tuturdu. 1979-cu ilin yanvar ayının 17-də isə Azərbaycan KP MK-nın bürosunda tarixi abidəyə etinadsız yanaşanların hərəkətləri müzakirə olunmuş və onlar cəzalandırılmışlar. Bax, bu idi Heydər Əliyev qətiyyəti, Heydər Əliyev vətənpərvərliyi və milli mövqeyi. Heydər Əliyevin Qəbələ ilə birinci tanışlığından sonra rayonda kənd təsərrüfatının, sənayenin sürətli inkişafı başlandı. Onun təşəbbüsü ilə rayonda çox böyük və məhsuldar üzüm bağları salındı, üzümün ilkin emalı zavodları, iri heyvandarlıq kompleksləri, fermalar, tütün fermentləmə, meyvə konservi zavodları tikildi, sosial obyektlərin inkişafına xüsusi diqqət yetirildi. Bu illər ərzində bütün respublikada olduğu kimi Qəbələ də sürətli sosial-iqtisadi inkişaf yoluna çıxdı.

Dahi şəxsiyyət Qəbələyə ikinci dəfə 2002-ci ildə gəldi. Artıq bu dövrdə Heydər Əliyev tərəfindən müstəqil Azərbaycanda milli dövlət quruculuğunun konturları müəyyən edilmiş, yerlərdə bu prinsiplərin həyata keçirilməsinə başlanmışdı. Ümummilli lider Qəbələ ilə ikinci tanışlıqdan sonra bu rayonu Azərbaycanınn İsveçrəsi adlandırmışdır. Onun təşəbbüsü ilə tezliklə Qəbələdə turizmin inkişafına başlanmışdır. Bu gün Heydər Əliyevin arzuları onun doğma varisi İlham Əliyevin yüksək təşkilatçılığı və rəhbərliyi ilə reallaşmışdır. Qəbələ artıq nəinki Azərbaycanda, hətta bütün dünyada tanınan turizm məkanın çevrilməkdədir. Son illərdə Qəbələdə ardıcıl olaraq beynəlxalq festivallar, mədəniyyət, incəsənət tədbirləri və digər elmi konfranslar keçirilir. Qəbələ demək olar ki, Azərbaycanın ən sürətlə inkişaf edən şəhərlərindən biri kimi, həmçinin təbii gözəllikləri, mehriban insanları ilə dünyanın diqqətini özünə cəlb etməkdədir. Bütün bunlar Heydər Əliyev siyasi kursunun bəhrələridir və onun təşəbbuslərinin reallaşmasıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 yanvar 2013-cü il tarixli sərəncamı ilə bu ilin may ayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi qeyd olunacaqdır. Hazırda bu yubileyə respublikamızın hər bir güşəsində ciddi hazırlıq görülür. Sərəncamda deyilir: **«Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur».**

Bəli, xalqımız ulu öndərin bu xidmətlərini heç vaxt unutmur və bundan sonra da unutmayacaqdır.

**Nadir ATAKİŞİYEV.**

# Təhsilimiz və tədbirlərimiz

Qəbələ şəhər 3 saylı tam orta məktəbi də təhsilin inkişaf dinamikası ilə ayaqlaşan məktəblərin siyahısındadır. Həyata keçirilən təhsil siyasətinin nəbzini tutan məktəbimiz son dövrdə silsilə tədbirləri ilə öz sözünü deyir. Belə ki, bu dərs ili ərzində məktəbdə rəhbərliyin hazırladığı iş planına əsasən 23 tədbir təşkil olunmuşdur. Konstitusiya günü, «20 Yanvar», Xəlil Rza Uluturkun anadan olmasının 80 illiyi və s. kimi tədbirlər buna misal ola bilər.

Məktəbimizdə ənənəvi olaraq, hər il məzunlarla görüşlər də keçirilir. Əvvəlki, illərdən fərqli olaraq, ötən il ali məktəblərə qəbul olan 26 məzunumuzdan Rəfael Rüstəmov, Aygün Məsimova, Cahat Əlibəşirli və s. kimi xüsusi istedadlı məzunlar məktəbin adını daha da yüksəltmişlər.

Tədbiri giriş sözü ilə başlayan məktəb rəhbəri əvvəl gündən-günə gözəlləşən Qəbələmiz haqqında və onun yüksəlişindən danışdı, daha sonra məktəbin qabaqcıl müəllimlərindən Aynur Mürsəlovanın, Xədicə Həmidovanın, Məlahət Səmədovanın adlarını çəkdi, şagirdlərin təlim-tərbiyəsində onların əməyini xüsusi olaraq qeyd etdi. Məktəbin direktor müavini Könül Nəbiyevanın hazırladığı tədbir iştirakçılar tərəfindən maraqla qarşılandı.

Əlamətdar gün videolentə alındı.

**Ramin NƏBİYEV,**
**Qəbələ şəhəri 3 saylı tam orta məktəbin müəllimi.**